## "Neftçilər günü" – Ulu öndər Heydər Əliyevin Azərbaycan neftçilərinə böyük hədiyyəsidir

Azərbaycan dövlətinin aparıcı beynəlxalq şirkəti olaraq ölkənin iqtisadiyyatında geniş fəaliyyət istiqamətlərinin müxtəlifliyinə və yaratdığı maddi-mənəvi dəyərlərinə görə SOCAR-ın rolu əvəzolunmazdır. Şirkət dənizdə, quruda neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı, işlənməsi, neft, qaz və qaz kondensatının hasilatı, emalı, nəqli, neft və neft-kimya məhsullarının, qazın daxili və xarici bazarlarda satışı, sənaye obyektlərinin və əhalinin təbii qaz təchizatı ilə məşğul olur. SOCAR təkcə ölkənin daxili tələbatının böyük hissəsini neft-qaz, həmçinin geniş çeşidli neft məhsulları ilə təmin etməklə kifayətlənmir, bundan əlavə, həmin məhsulların izafi hissəsini xarici bazarlara çıxartmaq işləri ilə də fəaliyyətini davam etdirir. Bütün bunların təməlində isə Ulu öndər Heydər Əliyevin banisi olduğu Azərbaycanın Yeni Neft Strategiyasının uğurlu icrası durur.

Azərbaycan Respublikasının iqtisadi-siyasi həyatında Yeni Neft Strategiyası, onun əsas tərkib hissəsi olan Ulu öndər Heydər Əliyevin gərgin zəhmətinin, siyasi iradəsi, şəxsi nüfuz və hörmətinin sayəsində 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin Müqaviləsi"nin rolu danılmazdır (şəkil 1,2).



Şəkil 1."Əsrin Müqaviləsi" nin imzalanma mərasimi





Şəkil 2. 1994-cü il, Bakı, "Əsrin Müqaviləsi" imzalandıqdan sonra Rəhbər Komitənin birinci iclasında

Məhz buna görədir ki, Ulu öndər 2001-ci ildə 20 sentyabr tarixinin Azərbaycan neftçilərinin peşə bayramı günü kimi qeyd olunması barədə fərman verdi.

Beləliklə də, 20 sentyabr günü Azərbaycan iqtisadiyyatında, ölkəmizin ictimai-siyasi və sosial həyatında parlaq bir səhifə açmış Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi üzrə imzalanmış "Əsrin müqaviləsi"nə və ümummilli liderin neft-qaz strategiyasını var qüvvə ilə həyata keçirən neftçilərin əməyinə verilən yüksək dəyərin rəmzi oldu (şəkil 3).



Şəkil 3. Xəzərin Azərbaycan sektorunda neft-qaz yataqları və strukturları

Elə ona görə də, biz də hər il Neftçilər gününü qeyd edəndə diqqəti ən əvvəl "Azəri-Çıraq-Günəşli" layihəsi çərçivəsində görülmüş işlərə cəlb edirik.

İşlənmənin əvvəlindən 2020-ci il sentyabrın 1-dək "Azəri-Çıraq-Günəşli" yataqlarından 516.0 milyon ton neft və 172.0 milyard kubmetr qaz hasil olunub. Hazırda Respublikada hasil edilən neft və qazın əsas hissəsi "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları hesabına əldə edilir.

Artıq 21-ci ildir ki, Azəri-Çıraq-Günəşli layihəsinin iştirakçıları "mənfəət nefti"ndən gəlir əldə edirlər. 2020-ci il sentyabrın 1-dək dünya bazarlarında Azərbaycanın payına düşən 305 milyon ton "mənfəət nefti" satılmışdır ki, bu da həmin vaxtadək çıxarılmış "Azəri-Çıraq-Günəşli" neftinin 59 %-ni təşkil edir. Mənfəət neftinin həcmi ilbəil artır. Bu ilin səkkiz ayında "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil edilmiş 16 milyon ton neftin 12 milyon tonu, yəni 75 %-i Azərbaycanın payına düşən mənfəət nefti olmuşdur. Hazırda 26 ildir ki, "Əsrin müqaviləsi" çərçivəsində işlər uğurla davam etdirilir. "Əsrin müqaviləsi"nin Azərbaycan üçün çox böyük əhəmiyyəti oldu. Mən yalnız bir neçə əsas məsələni qeyd etmək istəyirəm.

Siyasi cəhətdən müqavilənin əhəmiyyəti ondadır ki, dünyanın aparıcı dövlət və şirkətləri bir daha əmin oldular ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Heç də təsadüfi deyil ki, bu saziş imzalandıqdan sonra xarici şirkətlərlə daha 35 saziş bağlandı.

Müqavilənin iqtisadi əhəmiyyəti isə odur ki, neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən – 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatdı. Beləliklə, neft hasilatı 5.6 dəfə artdı. Bu layihə hələ çox illər Azərbaycan iqtisadiyyatına öz töhfəsini verəcəkdir. Belə ki, 2017-ci il sentyabrın 14-də Bakının Heydər Əliyev Mərkəzində "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsinə dair 1994-cü ildə 30 il müddətinə bağlanmış sazişin, yəni "Əsrin müqaviləsi"nin vaxtının uzadılması haqqında müqavilə imzalandı (şəkil 4).




**Şəkil 4. AÇG üzrə yeni müqavilənin imzalanması**

Ölkə Prezidenti İlham Əliyev bu münasibətlə keçirilən mərasimdəki nitqində "Əsrin müqaviləsi" çərçivəsində görülmüş işləri yüksək qiymətləndirdi, yeni müqavilənin şərtləri barədə danışdı. Azərbaycan ictimaiyyətinə bu haqda geniş məlumat verildiyindən mən unikal AÇG yataqlarının və yeni sazişin Respublikamız üçün əhəmiyyətini yalnız bəzi fakt və rəqəmləri xatırlatmaqla göstərmək istəyirəm.

Yeni müqavilədə Azərbaycan üçün olduqca sərfəli şərtlər müəyyən edilmişdir. Məsələn, mənfəət karbohidrogenlərinin bölgüsü bu günədək mövcud olan nisbətdə qalır. Yəni Azərbaycana 75 %, podratçı tərəflərə 25 %. Bu bölgü 2050-ci ilədək dəyişməyəcək. Podratçı qismində çıxış edən Azərbaycan AÇG şirkətinin mövcud layihə üzrə payı 11.6 %-dən 25 %-ə, yəni iki dəfədən də çox artırılır. Müqavilə çərçivəsində yataqlardan hasil edilən səmt qazı əvvəlkitək bütünlüklə Azərbaycana qalacaqdır. Müqavilə çərçivəsində tərəfdaş şirkətlər Azərbaycan hökumətinə 3.6 milyard dollar həcmində bonus ödəyəcəklər. 2050-ci ilədək AÇG-dən daha 500 milyon tona qədər neft hasil ediləcək və o vaxtadək bu yataqlara indiyədək qoyulduğu qədər, yəni daha 43 milyard dollar sərmayə qoyulacaqdır.



"Əsrin müqaviləsi"nin ən böyük nailiyyətlərindən biri də odur ki, bu müqavilə yalnız AÇG yataqlarının işlənməsi ilə məhdudlaşmadı. Bu böyük layihənin törəmələri meydana gəldi ki, onların da birincisi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri oldu (şəkil 5) .




**Şəkil 5. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri**

"Əsrin müqaviləsi" Ümummilli liderimiz Heydər Əliyevin birinci şah əsəri idisə, Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri onun ikinci şah əsəri oldu.

2020-ci il sentyabrın 1-dək dünya bazarlarına 579 milyon ton Azərbaycan nefti çıxarılmışdır ki, bunun da 162 milyon tonu Bakı-Supsa, Bakı-Novorossiysk kəmərləri və dəmiryolu ilə, 417 milyon tonu isə Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəql edilmişdir.

Bu vaxta qədər AÇG-yə 43 milyard dollardan çox sərmayə qoyulmuş, bundan sonra da bir o qədər sərmayə qoyulması nəzərdə tutulur.

"Əsrin müqaviləsi"nin imzalanması gününün neftçilərin peşə bayramı kimi qeyd olunduğu bir gündə biz "Şahdəniz" epopeyasından da danışmaya bilmərik. Çünki "Əsrin müqaviləsi" olmasaydı, "Şahdəniz" də olmayacaqdı. "Şahdəniz" layihəsi Ulu öndərimiz Heydər Əliyevin üçüncü şah əsəridir .

"Əsrin müqaviləsi" Azərbaycanı dünyaya yenidən neft ölkəsi kimi tanıtdısa, 1999-cu ilin iyununda ehtiyatları bu günə 1.2 trilyon kubmetr qazdan və 240 milyon ton kondensatdan ibarət olan nəhəng "Şahdəniz" yatağının kəşf edilməsi və "Şahdəniz" qaz layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi Azərbaycanı dünyaya böyük miqdarda qaz ixrac edən bir ölkə kimi tanıtdırdı.

İşlənmənin əvvəlindən "Şahdəniz" yatağından 129 milyard kubmetrdən çox qaz və 29 milyon tondan artıq kondensat hasil edilmişdir. 2020-ci il sentyabrın 1-dək "Şahdəniz-1" layihəsi üzrə Cənubi–Qafqaz Boru Kəməri ilə Gürcüstana 9.8 milyard kubmetr və Türkiyəyə 73.7 milyard kubmetr qaz ixrac edilmişdir.

"Şahdəniz-2" layihəsi çərçivəsində Azərbaycan qazının Avropaya nəql edilməsi və bu məqsədə "Cənub Qaz Dəhlizi"nin çəkilməsi bizim müasir qaz epopeyamızın ən parlaq fəslidir.

"Cənub Qaz Dəhlizi"nin açılışı 2018-ci il mayın 29-da Səngəçal terminalında oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə keçirilən təntənəli mərasimdəki nitqində dedi ki, "Cənub Qaz Dəhlizi" layihəsinin uğurlu icrası sayəsində ölkəmizin həyatında, neft-qaz sənayesinin inkişafında yeni dövr başlanır.

2019-cu il noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, SOCAR-ın prezidenti Rövnəq Abdullayev və digər rəsmi şəxslərin iştirakı ilə TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirildi.

Mərasimdə cənab İlham Əliyev qeyd etdi ki,... "Avrasiyada ən böyük infrastruktur layihələrindən biri

olan "Cənub Qaz Dəhlizi" vaxtında istismara veriləcəkdir. Layihələrin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin qələbəsidir, eyni zamanda, biz bunu digər ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi ilə reallaşdırdıq. Bu gün "Cənub qaz dəhlizi" özündə yeddi ölkəni birləşdirir və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaqdır".

İlkin mərhələdə "Cənub Qaz Dəhlizi" ilə ixrac ediləcək 16 milyard kubmetr "Şahdəniz" qazının 6 milyard kubmetri Türkiyə Respublikasına, 10 milyard kubmetri isə Avropa ölkələrinə ötürüləcəkdir.

Artıq "Cənub Qaz Dəhlizi"nin növbəti mərhələsinin – TAP adı ilə tanınan Trans-Adriatik qaz boru kəmərinin tikintisi də tamamlanmışdır. 878 kilometr uzunluğunda olan kəmər Yunanıstan və Albaniyadan, Adriatik dənizindən keçəcək və İtaliya torpağında yenidən quruya çıxacaq və bu ölkələrə qaz nəql ediləcəkdir. Artıq Azərbaycan təbii qazını Avropaya çatdıracaq TAP boru kəməri layihəsi üzrə işlərin – mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 97 %-i yekunlaşmışdır. Hazırda boru kəmərinin inşasının son mərhələsi həyata keçirilir. Belə ki, boruların son qaynaq işləri yekunlaşmış və TANAP boru kəmərindən İtaliyadakı qəbul terminalınadək 878 kilometrlik boru kəməri artıq birləşdirilmişdir. Bu isə "Cənub Qaz Dəhlizi"nin açılması istiqamətində daha bir yekun mərhələdir.

2019-cu il sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə "Əsrin Müqaviləsi"nin 25 illiyi Heydər Əliyev Mərkəzində təntənəli surətdə qeyd edildi. Tədbirdə cənab İlham Əliyev "Əsrin müqaviləsi" nin tarixi, iqtisadi-siyasi əhəmiyyəti barədə məruzə ilə çıxış etdi və SOCAR ilə xarici şirkətlərin birgə fəaliyyətinin əhəmiyyətini vurğuladı (şəkil 6).




**Şəkil 6. "Əsrin Müqaviləsi"nin 25 illiyi, "Neftçilər günü"**

O qeyd etdi ki, "Əsrin kontraktı" Ulu öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır. Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başlamışlar. "Əsrin kontraktı"nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradılmışdır. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. Yəni "Əsrin kontraktı"nın çox böyük faydası var".

Mərasimdə Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə BP-nin prezidenti, Böyük Britaniya və Amerika Birləşmiş Ştatlarının rəsmiləri və mən çıxış etdim.

Mən çıxışımda "Əsrin Müqaviləsi"nin imzalanana qədər necə çətinliklə başa gəlməsindən, cənab İlham Əliyevin ABŞ-ın Hyuston şəhərində bu müqavilənin ərsəyə gəlməsindəki fədakar zəhmətindən, birinci xanım Mehriban Əliyevanın bizi necə ruhlandırmağı və işlərimizə hər gün xeyir-dua verməsindən və nəhayət, Ulu öndər Heydər Əliyevin iradə və şəxsi nüfuzu sayəsində 7 ölkənin 11 tanınmış şikətinin bu müqaviləni Bakıda imzalaması ilə bağlı xatirələrimi yada saldım.

Keçən dövr ərzində əlamətdar hadisələrdən biri də 2019-cu il noyabrın 6-da əfsanəvi "Neft Daşları"-nın 70 illik yubileyinin təntənəli qeyd edilməsidir (şəkil 7, 8, 9).





**Şəkil 7. Əfsanəvi "Neft Daşları"**



**Şəkil 8. "Neft Daşları"nın 70 illik yubileyi tədbirlərində**

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin təbrik məktubunu Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva iştirakçıların diqqətinə çatdırdı. SOCAR-ın prezidenti cənab Rövnəq Abdullayev, mən, Azərbaycan "Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev və başqaları çıxış etdik.

Mən "Neft Daşları" yatağının kəşf olunmasının tarixindən, onun dəniz akvatoriyasında, dünyada açıq



Şəkil 9. "Neft Daşları"nın 70 illik yubileyi tədbirlərində

dənizdə istismar olunan ilk yataq olduğunu, bu yatağın işlənməyə verilməsi ilə neft sənayesinə verdiyi töhfənin əvəzedilməz olduğundan, oradakı iş fəaliyyətim və xatirələrimdən danışdım. Qeyd etdim ki, işlənmənin əvvəlindən yataqdan təxminən 176.4 milyon ton neft və 14 milyard kubmetr qaz hasil edilmişdir. Hazırda yataqda illik neft hasilatı 945–950 min ton, qaz hasilatı isə 85 milyon kubmetr həcmindədir. Bu yataq Azərbaycanı dənizdə neft hasilatının vətəni, "Neft Daşları"nı isə dünyanın 8-ci möcüzəsi kimi tarixə salmışdır. "Neft Daşları" yatağının kəşfinin və işlənilməsinin Azərbaycanda neft sənayesinin inkişafında və dünyanın yanacaq-energetika potensialının artırılmasında rolu barəsində aşağıdakı fikirlərimi diqqətə çatdırdım.

- Bu yataq neft-qaz sənayesinin inkişafında yeni mərhələnin – dəniz yataqlarının mənimsənilməsi mərhələsinin başlanğıcını qoydu.

- Dünya təcrübəsində ilk dəfə açıq dənizdə estakada dirəkləri üzərində dəniz mədəni tikildi. Ötən illərdə "Neft Daşları"nda meydançalarla birlikdə təxminən 300 kilometr estakada inşa edilmişdir.

- "Neft Daşları" Azərbaycanda neft hasilatının artmasına təkan verdi. Respublikada illik neft hasilatı 1948-ci ildəki 14 milyon tondan 1966-cı ildə 22 milyon tona çatdı.

- Dünya təcrübəsində ilk dəfə olaraq dənizdə laylara suvurma metodu məhz "Neft Daşları"nda tətbiq edildi. İşlənmənin əvvəlindən bəri "Neft Daşları"nda laylara 270 milyon kubmetrə yaxın su vurulmuş, bunun da nəticəsində quyuların fontan üsulu ilə işləməsinin müddəti xeyli uzadılmışdır və layların neftvermə əmsalı xeyli artmışdır.

- "Neft Daşları" açıq dənizdə təcrübəli kadrların hazırlanması üçün praktiki bir məktəb oldu. Həmin mütəxəssislər nəinki Azərbaycanda və keçmiş SSRİ-də, həmçinin dünyanın bir çox ölkələrində müvəffəqiyyətlə işləyirdilər.

- Abşeron-Balxanyanı qalxımından neft alınması sonradan "Azəri-Çıraq-Günəşli" kimi yataqların açılmasına zəmin yaratdı.

- Dünyada dəniz akvatoriyalarının mənimsənilməsi epoxasının əsasını qoymuş "Neft Daşları"nın kəşfi təkcə keçmiş SSRİ-də – Xəzərdə, Oxot, Barents dənizlərində, Qara dənizdə deyil, həm də dünyanın bütün dəniz və okean akvatoriyalarında – Meksika körfəzində, Şimal dənizində axtarış-kəşfiyyat işlərinin inkişafına güclü təkan verdi. Hazırda dünya üzrə axtarış-kəşfiyyat işlərinin və karbohidrogen hasilatının böyük bir hissəsi dəniz akvatoriyalarının payına düşür. Dünya okeanları və dənizlərinin şelfində işlərin miqyası sürətlə genişlənir. Suyun dərinliyi min metrdən çox olan sahələrdə karbohidrogen ehtiyatlarının mənimsənilməsi prosesi gedir və biz fəxrlə deyə bilərik ki, bu böyük prosesin təməlini Azərbaycan neftçiləri qoymuşlar.

Son bir ildə baş verən əsas hadisələrdən biri də, 2020-ci il avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Qarabağ" yatağında qoyulacaq platformanın dayaq blokunun dənizə yola salınma mərasimi oldu (şəkil 10) .



Şəkil 10. "Qarabağ" yatağında qoyulacaq platformanın dayaq bloku

"Qarabağ" yatağında qoyulacaq platformanın dayaq bloku SOCAR-ın "BOS Şelf" şirkəti tərəfindən Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilmişdir. Qurğu neft-qaz kəşfiyyatı və hasilatı üçün nəzərdə tutulur. Dayaq bloku "Qarabağ" yatağında quraşdırılacaq stasionar dəniz özülünün üst hissəsini və göyərtə meydançasını saxlamaq məqsədilə şəbəkə tipli metal konstruksiya şəklində hazırlanmışdır. Bu blok dəniz suyunun dərinliyi 182 metr olan, bu vaxta qədər Xəzər dənizində ən dərin sahədə quraşdırılacaq stasionar dəniz özülü olacaqdır. Dayaq blokunun quraşdırılması "Qarabağ" yatağının dərin qatlarında neft və qaz hasilatının həyata keçirilməsində böyük rol oynayacaq və Azərbaycanda neft-qaz hasilatının stabil saxlanılmasına əlavə stimul verəcəkdir.

SOCAR-da yeni texnika və texnologiyaların istehsalata tətbiqi istiqamətində də işlər aparılır. Həm öz institumuzun həm də Respublikada fəaliyyət göstərən elmi müəssisələrin alim və mütəxəssisləri tərəfindən elmi araşdırmalar aparılır və tətbiq sayəsində müsbət nəticələrə nail olunur.

SOCAR-ın ayrı-ayrı neft-qaz yataqlarında Elm, texnika və nanotexnologiyalar departamenti tərəfindən nanosistemlər tətbiq olunur və nəticədə quyuların təmirarası müddəti artır, yanalmalarla bağlı vaxt itkisi məhdudlaşır, əlavə xərclər və əmək məsrəfləri azalır, quyuiçi avadanlığın və kollektorların istismar müddəti uzanır.

2019-cu ildə Departamentdə ştuserlərin yeyilməyə dayanıqlığını artırmaq üçün nanohissəciklərin tətbiqilə tədqiqatlar aparılmış,aqressiv mühitin təsirinə davamlı nanostrukturlu ştuserlər hazırlanmış və elektrik dalma nasoslarının yeyilməyə məruz qalan avadanlıq hissələri nanoörtüklə cilalanaraq quyularda müvəffəqiyyətlə tətbiq edilmişdir. Eyni zamanda 2019-cu ildə Respublikamızda ilk dəfə metal nanohissəciklərin istehsal texnologiyası əsasında işləyən qurğuda 40-60 nm ölçülərdə Al, Cu və Fe nanohissəcikləri ishtehsal olunmuş və istehsalata tətbiq edilmişdir.

2019-cu ildə Departamentdə beynəlxalq əlaqələrin qurulması və birgə fəaliyyət sahəsində bir sıra işlər görülmüş, Almaniya, Rusiya, İtaliya, Lüksemburq, Fransa və Kanadanın nanotexnologiyalar sahəsində fəaliyyət göstərən müvafiq qurumları ilə imzalanmış Anlaşma Memorandumları çərçivəsində mövcud əməkdaşlıqlar daha da inkişaf etdirilmişdir.

SOCAR Azərbaycanda elmin inkişafına yönəldilmiş aparıcı layihələrə də öz töhfəsini verir.

Son illər Azərbaycanda neft, qaz və neft-kimya sənayesi ilə əlaqədar elmi araşdırmaları inkişaf etdir-

məк məqsədilə SOCAR-la Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Milli Aviasiya Akademiyası arasında Anlaşma Memorandumları imzalanıb, müvafiq olaraq SOCAR-ın Elm Fondu və Elmi Tərəqqi Fondu yaradılıb. İndiyədək 5 layihə müsabiqəsi keçirilib. Bu müsabiqələrə ümumilikdə 612 layihə təqdim olunub. 221 layihə qalib hesab edilib ki, bunlar da SOCAR üçün mühüm əhəmiyyət kəsb edir. Layihələr çərçivəsində 70-ə qədər məqalə impakt faktorlu jurnallarda dərc olunub.

Əminəm ki, elmi-texniki yeniliklərin, müasir texnika və texnologiyaların tətbiqi sayəsində Azərbaycanın neft və qaz sənayesi qarşısında açılmış üfüqlər daha da genişlənəcəkdir.

Əldə edilmiş bütün bu nailiyyətlər və uğurlar onu göstərir ki, Azərbaycan Respublikası və onun neft-qaz sənayesi ümummilli lider Heydər Əliyevin başladığı və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin davam etdirdiyi "Neft strategiyasının" həyata keçirildiyi dövr ərzində əsrə bərabər bir inkişaf yolu keçmişdir. Əminəm ki, bu böyük tərəqqi yolunda xalqımız hələ çox qələbələrin, yeni parlaq nailiyyətlərin şahidi olacaqdır.

Son bir il mənim də həyatımda unudulmaz, qürurverici bir hadisə ilə yadda qalıb. Bu il 14 yanvarda mənim 90 illik yubileyim ölkə Prezidentinin sərəncamı ilə böyük təntənə ilə qeyd edildi (şəkil 11).



Şəkil 11. "Buta Palace" konsert-banket kompleksi, 2020-ci il,
İlham Əliyev "Heydər Əliyev" ordenini təqdim edərkən

Hörmətli Prezidentimiz İlham Əliyev və onun xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da iştirak etdiyi mərasimdə mənim neft sənayesindəki xidmətlərim bir daha xatırlandı, ünvanıma çox xoş sözlər səsləndirildi. Mən də cavab nitqimdə qeyd etdim ki, "Prezidentimiz burada mənə elə bir mükafat təqdim etdi ki, bu mükafat ömrümün sonuna qədər sinəmin üstündə günəş kimi parlayacaq. "Heydər Əliyev" ordenini Prezidentimizdən qəbul edərkən sanki öz üzərimdə Ulu öndərimizin unudulmaz baxışlarını yenidən hiss etdim, onun doğma səsini yenidən eşitdim. Ruhu şad olsun!

Sonda Azərbaycan neftçiləri üçün çox əziz bayram olan 20 sentyabr Neftçilər günü münasibətilə bütün həmkarlarımı təbrik edir, onlara uzun, sağlam və mənalı həyat arzu edirəm.

**Xoşbəxt Yusifzadə,**
**Azərbaycan Respublikası**
**Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti,**
**Azərbaycan Milli Elmlər Akademiyasının akademiki**



# The "Oil Workers Day" is a great gift of the National Leader Heydar Aliyev to Azerbaijani oil workers

The role of SOCAR as a leading international company of Azerbaijan is irreplaceable due to the diversity of activities in the country's economy and the material and moral values it creates. SOCAR researches, explores and develops onshore and offshore oil and gas fields, conducts production, processing and transportation of oil, gas and gas condensate, sales oil, petrochemical products and gas on domestic and foreign markets, and organizes local natural gas supply. SOCAR supplies not only domestic demand, but also continues to export a wide range of oil products to foreign markets. The successful implementation of the New Oil Strategy of Azerbaijan, founded by National Leader Heydar Aliyev is in the heart of these activities.

The role of the "Contract of the Century" signed on September 20, 1994, in the economic and political life of Azerbaijan is undeniable, as the main components of it were the hard work, political will, personal authority and respect of the National Leader Heydar Aliyev (Figures 1, 2).



Figure 1. Signing the "Contract of the Century"



**Figure 2. The first meeting of Steering Committee after the signing of the "Contract of the Century". Baku, 1994.**

The National Leader issued a decree in 2001, to mark September 20 as the professional holiday of Azerbaijani oil workers.

The "Contract of the Century" signed on September 20 on the joint development of the ACG field in the Azerbaijani sector of the Caspian Sea, and the National Leader's Oil and Gas Strategy opened a bright page in the economy, political and social life of Azerbaijan. It was a symbol of the high value for the work of all oil workers (Figure 3).




**Figure 3. Oil and gas fields and structures in the Azerbaijani sector of the Caspian Sea**



That is why every year, when we celebrate the Oil Workers Day, we first draw attention to the work done within the ACG project.

Since the start of production from the ACG field to September 1, 2020 516 million tons of oil and 172 billion m$^3$ of gas were produced. Currently, the main part of hydrocarbons production in the Republic falls to the share of the ACG and Shah Deniz fields.

For over 21 years, participants in the ACG project have been receiving dividends from "profit oil". About 305 million tons of "profit oil" had been sold on world market to September 1, 2020. This is 59 percent of all oil extracted from ACG to date. Oil dividends are growing every year. Out of 16 million tons of oil produced from the ACG field in the first eight months of this year, 75 % or 12 million tons were profit oil falling to the share of Azerbaijan. The "Contract of the Century" was of great importance for Azerbaijan. I just want to mention a few key issues.

The great political importance of the Contract is that it once more convinced leading states and companies that Azerbaijan is an independent country and reliable partner, and that it is possible to work here and to invest in this country! It is no accident that after this Contract, 35 new contracts were signed with foreign companies.

It also had great economic benefits. The Contract provided an opportunity to increase oil and gas production. The production of oil was increased from 9 million tons in 1997 to 51 million in 2010. It means that oil production increased by 5.6 times. This project will contribute to the economy of Azerbaijan for many years. Thus, on September 14, 2017 an agreement was signed at Heydar Aliyev Center in Baku to extend the 30-year agreement signed in 1994, the "Contract of the Century" on joint development of the ACG field (Figure 4).




**Figure 4. Signing a new ACG agreement**

In his speech at the ceremony, President Ilham Aliyev praised the work done under the "Contract of the Century" and spoke about the terms of the new agreement. As the Azerbaijani public has been widely informed about this, I want to show the importance of the unique ACG field and the new agreement for our country by recalling only some facts.

This agreement will create quite favorable conditions for Azerbaijan. For example, the sharing of profit hydrocarbons remains at the same level: 75 % to Azerbaijan and 25 % to the contracting parties. This division will not change until 2050. The share of the ACG Azerbaijan Company, a contractor in this project, increases from 11.6 % to 25 %. The associated gas produced from the fields will remain entirely in Azerbaijan. According to the contract, partner companies will pay a bonus of $3.6 billion to the Azerbaijani government. By 2050, up to 500 million tons of oil will be produced from the ACG field. So far, about $43 billion have been invested in the ACG project, and the same amount will also be invested in the future.

One of the greatest achievements of the "Contract of the Century" is that it was not limited to the development of ACG field. The first product of this major project is the Baku-Tbilisi-Ceyhan oil pipeline (Figure 5).




**Figure 5. Baku-Tbilisi-Ceyhan main export pipeline**

If the "Contract of the Century" was National Leader Heydar Aliyev's first masterwork, BTC - main oil export pipeline was his second one.

579 million tons of oil was exported to world markets before September 1 2020, 162 million tons of which was transported via the Baku-Supsa and Baku-Novorossiysk pipelines and by rail roads, other 417 million tons was transported via the BTC pipeline.

So far, about $43 billion have been invested in the ACG project, and the same amount will also be invested in the future.

We should mention the epic Shah Deniz on a day when the signing of the "Contract of the Century" celebrated as a professional holiday of oil workers. Because if there was no "Contract of the Century", there would be no Shah Deniz. The Shah Deniz project is the third masterpiece of our National Leader Heydar Aliyev.

Whereas "The Contract of the Century" asserted Azerbaijan as an oil country, the discovery of the Shah Deniz field with 1.2 trillion $m^3$ of gas and 240 million tons of condensate reserves, also successful implementation of the Shah Deniz gas project introduced our republic as a gas country to the world.

Since the start of development, 129 billion $m^3$ of gas and 27 million tons of condensate have been extracted from Shah Deniz. By September 1 2020, under the Shah Deniz-1 project, 9.8 billion $m^3$ of gas were transported via the South Caucasus Pipeline to Georgia and 73.7 billion $m^3$ to Turkey.

The transportation of Azerbaijani gas to Europe under the Shah Deniz-2 project and the construction of the Southern Gas Corridor is the brightest chapter of our modern gas era.

The inauguration of Southern Gas Corridor has been held in Sangachal terminal on May 29, 2018. In his speech at the ceremony, President of Azerbaijan Ilham Aliyev said that due to the successful implementation of the Southern Gas Corridor project, a new era in the life of our country and in development of oil and gas industry will start.

On November 30, 2019, the President of the Republic of Azerbaijan Ilham Aliyev, the President of Turkey Recep Tayyip Erdogan, the President of SOCAR Rovnag Abdullayev and other officials attended TANAP-Europe connection opening ceremony in Ipsala settlement, Edirne province, Turkey.

At the ceremony, Mr. Ilham Aliyev noted that "The Southern Gas Corridor, one of the largest infrastructure projects in Eurasia, will be commissioned in a timely manner. The implementation of the projects is a victory of the joint Turkish-Azerbaijani political will and at the same time we have done it with the participation of other countries and the financial support of private companies. Today, the Southern Gas Corridor unites 7 countries and is already an international cooperation project. This project will create bridges between countries and lead to a greater understanding."

At the initial stage, 6 billion $m^3$ of 16 billion $m^3$ of Shah Deniz gas will be transferred to the Republic of Turkey and 10 billion m3 to European countries via the Southern Gas Corridor.



The construction of the next stage of the Southern Gas Corridor - the Trans-Adriatic gas pipeline known as TAP has already been completed. The 878 km pipeline passes through Greece and Albania, then the Adriatic Sea and Italy, and soon will start to transport gas to these countries. 97 % of the work on the TAP pipeline project, which will deliver Azerbaijani natural gas to Europe, including engineering, procurement and construction has already been completed. Currently, the final stage of construction of the pipeline is underway. Thus, the final welding of the pipes has been completed and the 878 km pipeline has already been connected the TANAP pipeline with the receiving terminal in Italy. This is another final step in the opening of the Southern Gas Corridor.

On September 20, 2019 with the participation of the President of the Republic of Azerbaijan Ilham Aliyev the 25th anniversary of the "Contract of the Century" was solemnly celebrated at Heydar Aliyev Center. At the event Mr. Ilham Aliyev made a report on the history, economic and political significance of the "Contract of the Century" and stressed the joint importance of SOCAR and foreign companies (Figure 6).




24995

**Figure 6. 25th anniversary of the "Contract of the Century", Oil Workers Day**

He noted that the "Contract of the Century" is an integral part of the oil strategy of the National Leader Heydar Aliyev, its beginning. Thanks to the courage and wisdom of Heydar Aliyev, Azerbaijan was able to present itself to the world. For the first time in history, foreign companies began to participate in the development of oil and gas fields in the Caspian Sea. Thousands of new jobs have been opened as a result of the signing of the "Contract of the Century". Thousands of companies in Azerbaijan act as contractors in the implementation of this Contract. In other words, the "Contract of the Century" has great benefits."

BP President for Azerbaijan, Georgia and Turkey, officials from the United Kingdom and the United States and me had a speech at the ceremony.

In my speech, I recalled my memories of how difficult the "Contract of the Century" was before it was signed; Mr. Ilham Aliyev's selfless work in reaching this agreement in Houston, USA; how First Lady Mehriban Aliyeva inspired us and blessed our work every day, and finally, National Leader Heydar Aliyev's will and personal authority in signing this agreement between 11 world famous companies from 7 countries in Baku.

One of the significant events of the past period is the 70th anniversary of the legendary Oil Rocks on November 6, 2019 (Figures 7, 8, 9).

Farah Aliyeva, Head of the Humanitarian Policy Department of the Presidential Administration, delivered a congratulatory letter from the President of the Republic of Azerbaijan to the participants of the event. Mr. Rovnag Abdullayev, the President of SOCAR, Khoshbakht Yusifzadeh, Rauf Valiyev, Chairman of the Azerbaijan Caspian Shipping Company and others were the speakers at the ceremony.

I spoke about the history of the discovery of Oil Rocks. It was the first offshore field in the world, its contribution to the oil industry was irreplaceable. I pointed that about 176.4 million tons of oil and 14 billion $m^3$ of gas have been extracted from the field since the beginning of the development. At present, the field's annual oil



Azərbaycan ... Kitabxanası



Figure 7. The legendary Oil Rocks



Figure 8. The 70th anniversary of Oil Rocks

production is 945–950 thousand tons, and gas production is 85 million $m^3$. The field is like the 8th wonder of the world; it has made Azerbaijan the homeland of offshore oil production. I expressed some views on the role of the discovery and development of Oil Rocks in oil industry in Azerbaijan and in increasing the world's fuel and energy potential:





Figure 9. The 70th anniversary of Oil Rocks

this field was the beginning of a new stage in the development of the oil and gas industry - the development of offshore fields;

this offshore site built on the trestles in open seas was world's first practice. The total length of trestles is about 300 km;

Oil Rocks has boosted oil production in Azerbaijan. Oil production reached from 14 million tons in 1950 to 22 million tons in 1966;

the world's first water injection process was applied in Oil Rocks. Since the start of development, 268 million tons of water was injected into the layers of Oil Rocks, which allowed to extract additional oil;

Oil Rocks became a school in the field of training and experience for personnel working in open seas;

Extraction of oil from Absheron-Balkhan uplift zone led to the subsequent opening of fields like Azeri-Chirag-Gunashli;

The discovery of Oil Rocks, which laid the foundation for the era of world's offshore development, gave a strong impulse to the offshore exploration not only in the former USSR – the Caspian Sea, Sea of Okhotsk, Barents Sea, the Black Sea, also in all seas and oceans - the Gulf of Mexico and the North Sea. At present, a big part of the world's exploration and production of hydrocarbons falls on offshore. The scale of offshore works is expanding rapidly. The development process of hydrocarbon resources is underway in the areas with the depth of more than thousand meters and we can proudly say that Azerbaijani oil workers laid the foundation of this great process.

One of the main events of this year was the sail away of Garabagh field jacket on August 10, 2020 at the Baku Deep Water Jackets Plant named after Heydar Aliyev with the participation of President Ilham Aliyev (Figure 10).

Garabagh field jacket was built by SOCAR`s BOS Shelf Company at Baku Deep Water Jackets Plant named after Heydar Aliyev. The facility is designed for oil-gas exploration and production. The jacket is designed in the form of a grid-type metal structure to support the upper part of the stationary platform that will be installed on Garabagh field. This jacket will be installed on the seabed with 182 m depth, which is the deepest area of the Caspian Sea, where the platform was installed ever. The jacket will play a major role in oil-gas production of the deep layers of Garabagh field and will provide additional incentives for maintaining stable oil and gas production in Azerbaijan.

SOCAR is also working on the implementation of up-to-date equipment and technologies in oil production.



Figure 10. Garabagh field jacket

The scientists and specialists of both our institute and other scientific enterprises operating in the state conduct scientific research and achieve positive results.

SOCAR's Science, Technology and Nanotechnology Department is implementing nanosystems in some oil and gas fields, which increases time between overhauls, reduces downtime, overhead and labor costs and extends well equipment's and collector's life as well.

In 2019, the Department conducted research on the use of nanoparticles to increase the wear resistance of nozzles, developed nanostructured injectors resistant to aggressive environments and polished details of submersible electric pumps. Thus, in 2019, for the first time in our country, the Department produced 40–60 nm Al, Cu and Fe nanoparticles and applied them into production.

In 2019, the Department carried out a number of activities in the field of international relations and joint activities, relevant in the field of nanotechnology in Germany, Russia, Italy, Luxembourg, France and Canada. Existing cooperation has been further developed with signing the Understanding Memorandums.

SOCAR also contributes to leading projects aimed at the development of science in Azerbaijan.

Recently, SOCAR, Azerbaijan National Academy of Sciences and Azerbaijan National Aviation Academy have signed Memorandums of Understanding to develop scientific research in the oil, gas and petrochemical industry. "SOCAR Science Fund" and "SOCAR Science and Progress Fund" were established. So far, five project competitions have been held. Overall 612 projects were submitted to these competitions. 221 projects were considered winners, which are also important for SOCAR. As a part of the project, about 70 articles were published in impact factor journals.

I am confident that due to the application of scientific and technical innovations, modern equipment and technologies will expand horizons of our oil and gas industry.

All these achievements and successes show that the Republic of Azerbaijan and its oil-gas industry have developed for a century during the implementation of the "Oil Strategy" initiated by National Leader Heydar Aliyev and continued by his worthy successor, President of Azerbaijan Ilham Aliyev. I am confident that our people still witness many victories and new bright achievements on this great path of progress.

This year was also marked by an unforgettable and proud event in my life.

On January 14, my 90th birthday was celebrated with a great solemnity by the order of the President of Azerbaijan (Figure 11).

At the ceremony attended by our esteemed President Ilham Aliyev and his wife, First Vice President Mehriban Aliyeva, once again mentioned my services in the oil industry and addressed very kind words to me. In my





Figure 11. Buta Palace concert-banquet complex. Ilham Aliyev presents Heydar Aliyev Order, 2020.

reply, I also said, "Our President has presented me such a significant award that it will shine like the sun on my chest for the rest of my life." While receiving Heydar Aliyev Order from our President, it was as if I felt the unforgettable views of our National Leader on me again, I heard his native voice again. God rest his soul!

In conclusion, I congratulate all my colleagues on the occasion of the September 20, the Oil Workers Day, which is a very dear holiday for Azerbaijani oil workers, and wish them a long, healthy and meaningful life.

**Khoshbakht Yusifzadeh,**
**First Vice President of SOCAR,**
**Academician of the Azerbaijan National Academy of Sciences**

**"Azərbaycan neft təsərrüfatı" jurnalının redaksiya heyəti və kollektivi Azərbaycan xalqını, neft-qaz sənayesi işçilərini 20 sentyabr – Neftçilər Günü münasibətilə təbrik edir, möhkəm cansağlığı və yeni-yeni müvəffəqiyyətlər arzulayırlar.**